ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 7. CİLT, 1. SAYI, 2023, 117 - 126. s., TÜRKİYE

https://doi.org/10.30563/turklad.1115835

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu makale taranmıştır

Makale Bilgisi / *Article information*

Makale Türü / *Article types* : Araştırma Makalesi / *Research article*
Geliş Tarihi / *Received date* : 12.05.2022
Kabul Tarihi / *Accepted date* : 30.05.2023
Yayın Tarihi / *Date published* : 20.06.2023

Atıf / *Citation*

Muhammedoğlu, M. Y. (2023). Şamanizmdə və Digər Qədim Türk Ədəbi Nümunələrində Təbiət-İnsan Münasibətləri. *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*. 7. Cilt, 1. Sayı, 117-126.

# ŞAMANİZMDƏ VƏ DİGƏR QƏDİM TÜRK ƏDƏBİ NÜMUNƏLƏRİNDƏ TƏBİƏT-İNSAN MÜNASİBƏTLƏRİ

*Nature-human relations in Shamanism and other ancient Turkic literature*

**MAHMUDOV YUSUF MUHAMMEDOĞLU** [1]

## Öz

Şamanizm qədim Türk tarixində zəngin bir inanc sistemi olmuşdur. Şamanlar Göy Tanrını hər şeyin fövqündə duran bir qüvvə hesab edirdilər. Ruhlarla insanlar arasında əlaqələri tənzimləyən və praktik inama söykənən şamançılıq dünyagörüşü əski Türk mədəniyyətinin bütün qatlarına zaman-zaman öz təsirini göstərmişdir.

Şamanizm Türk ruhuna yaxın bir inanc kimi təbiəti dərketmə və ona inamla şərtlənir. Burada ətraf mühit amillərinə inam anlayışı çox geniş və əhatəlidir. Onların inanc sistemindəki praktik fəaliyyəti bilavasitə təbiətlə bağllıdır. Ona görə də ətraf mühitin bütün komponentləri şaman söyləmələrində və əfsanələrində özünə geniş yer tapmışdır. Mahiyyətcə çətin və müqəddəs hal hesab edilən şaman doğulma bir qayda olaraq təbiətdən kənarda deyil, dağda, göl və çay qırağında, meşə və torpaqda baş verir. Bu səbəbdən də şamanlarda təbiətə inam çox güclü idi. Ağac və daş kultu şaman möcüzələrində və etiqadlarında xüsusi əhəmiyyət kəsb edirdi. Onların canlı orqanizm kimi heyvanlara qarşı münasibətlərində də bir doğmalıq olmuşdur. Məqalədə şamanizmin və qədim Türk ədəbiyyatında təbiətə inam, ətraf mühitə münasibət, onun qorunması yönündə həyata keçirilən tədbirlər araşdırılır. Əski Türklərin inanc sisemində təbiət ilahi varlıq kimi qəbul edilir. Onun gücünə əsaslanan şamanlar xəstə insanları sağaldır, həlli müşkül olan məsələləri asanlıqla həll edir, çoxalama ilə bağlı müvafiq ayinlər həyata keçirməklə nəslin kəsilməsinin qarşısını alır və növün davamlılığını təmin etmiş olurlar. Şamanlar bəduğur uğur insanları yamanlayır, cəza tədbirlər görür, bu yolla onları tərbiyə etməyə və düz yola qaytarmağa çalışırdılar. Bu zaman müxtəlif heyvanlardan vasitə kimi istifadə edirdilər.

[1] Dr., Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan. el-mek: diriliyusuf@gmail.com,
ORCİD ID: https://orcid.org/0000-0002-6926-8262

Göründüyü kimi, tədqiqatımızda bioloji müxtəliflik, sağlam ətraf mühit və onun qorunması, insan ekologiyası kimi problemlərə də toxunulmuşdur. Araşdırmalarımız göstərir ki, qədim Türklərin həyat tərzində və onların inanc sistemində təbiətə özəl münasibət həmişə öndə olmuşdur.

**Anahtar Kelimeler:** Şamandoğulma, Qədim Türk Ədəbiyyatı, Ətraf Mühitin Qorunması, Təbiətə Münasibət

## Abstract

Shamanism has been a rich belief system in ancient Turkic history. The shamans considered the heavenly god to be a supernatural force. The shamanistic worldview, which regulates the relationship between spirits and people and is based on practical beliefs, has influenced all layers of ancient Turkic culture from time to time.

Shamanism, as a belief close to the Turkic spirit, is conditioned by understanding and believing in nature. The concept of belief in environmental factors is very broad and comprehensive. Their practical activity in the belief system is directly related to nature. Therefore, all components of the environment have found a place in shamanic sayings and legends. Shamanism, which is inherently difficult and sacred, usually takes place not out of nature, but in the mountains, lakes and rivers, forests and lands. For this reason, shamans have a very strong belief in nature. The cult of wood and stone is of special importance in shamanic miracles and beliefs. Their attitude towards animals as a living organism is also innate. The article examines the measures taken in shamanism and ancient Turkic literature to believe in nature, attitude to the environment and its protection. In the belief system of the ancient Turks, nature was perceived as a divine being. Shamans, based on its power, heal sick people, easily solve difficult problems, prevent the extinction of offspring by performing appropriate rites of reproduction, and ensure the sustainability of the species. The shamans cursed the people, punished them, and tried to educate them and bring them back to the right path. At that time, various animals were used as a means.

As can be seen, our research also addresses issues such as biodiversity, a healthy environment and its protection, and human ecology. Our research shows that the ancient Turks' way of life and their belief system always had a special attitude to nature.

**Keywords:** Shamanism, Ancient Turkic Literature, Protection of The Environment, Attitude to Nature.

## 1. Giriş

### 1.1. Şamanizm ve Şamançılıq

Şamançılıq bir sistem kimi əski Türklərdə Göy Türk kağanlığı dövründən başlayaraq mövcud olan, bir dünyagörüşü olaraq əski Türk mədəniyyətinin bütün qatlarına zaman-zaman öz təsirini göstərmiş və Türklərin inanc tarixində mühüm yer tutmuşdur. Şamanlar əhalinin məişət və təsərrüfatına, ətraf mühitinə təsir göstərmək gücünə malik olmuşlar. İnama görə şamanlar hər şeyə qadir imişlər; ölüb-dirilməyi bacarmış, ən çətin sınaqlardan uğurla keçə bilmişlər. Şamanların həyat tərzi, məqsədlərinə çatmaqdan ötrü qamlıq etmələri bilavasitə, ətraf mühit və onun komponentləri ilə bağlı olmuşdur. Şaman əfsanələrinə və tədqiqatlara görə şamanlar birdən-birə deyil, yaradanın istəyi ilə şamandoğulma hallarını keçib bu mərhələyə çatırlar. Şamandoğulma çətin prosesdir. Bunun ilkin şərtlərindən biri həmin anlarda təbiətlə sıx təmasda olmaqdır. "Şamanın azarlaması" söyləməsində deyilir ki, gələcəyin şamanı narahatlıq keçirir və o, çayın qırağına gedib üzü üstə yerə yıxılır. Ağzından köpük gəlir. Bir müddət belə qalır, ayılandan sonra şaman olur.

Görkəmli mifoloq, professor M. Seyidova görə, gələcəyin şamanının çay (su) sahilində üzü üstə torpağa yıxılıb yatması təsadüfü deyil, əski mif təfəkkürü ilə bağlıdır. Başqa sözlə, qədim Türk xalqlarının inamı, suya müqəddəs varlıq kimi yanaşmaları, onu həyatın ilkin başlanğıclarından biri hesab etmələri ilə əlaqədardır. Əski insanın düşünmə tərzi hər nəsnədən öncə yaşamaq uğrunda mübarizə ilə təbiəti dərketmə və ona inam ilə də şərtlənir. Təbiətə inam anlayışı çox genişdir, əhatəlidir (Seyidov, 1994: 24, 124). Suya, Torpağa, Dağa-daşa, Ağaca - bitkiyə, heyvana, Yelə-küləyə, Günəşə inam insana güc verir, onu yaşadır, bəzi hallarda fitri qabiliyyətə yiyələnir. Dastanlarımızda (“Qurbani”, “Abbas və Gülgəz”, “Aşıq Qərib” vb.) buta verilən aşıqlar saz çalmağı, söz qoşmağı, qabaqcadan bilgilər verməyi bacarırlar. Onlara bu istedad ağacın altında, torpağın üstündə, su hövzələrinin yanında, mağaralarda, daş pirlərin içində yatarkən verilir (Azərbaycan Dastanları III, 2005).

**2. Şamanizmdə və Türk Ədəbi Nümunələrində Təbiət-İnsan Münasibətləri**

Şaman-Qam təfəkkürü, xüsusilə ondan qabaqkı görüşülər Türk xalqlarının mifoloji-fəlsəfi baxışların, az sonra dinin söykəndiyi görüşlərin üzə çıxmasına, biçimlənməsinə, bədii təfəkkürün, estetik duyumunun yaranmasına, genişlənməsinə yardım etmişdir. Bu görüşlər çevrəni dərk etmək, ona təsir etmək, təbiətlə qarşılaşmasından yaranan mürəkkəb durumdan yaranmışdır. Bu görüşlər düzüşü-konsepsiyası insanın təbiəti sevmək hissini gücləndirirdi, insanla təbiət arasında qarşılıqlı ilişgə yaradırdı (Seyidov, 1994: 15).

Qeyd etmək lazımdır ki, kökü sufizmə gedib çıxan Sofu ocağı, Şamançılığın özgə bir şəkildə ifadəsi idi (Dirili, 2011). Yüz ildən çoxdur ki, Sofu ocağında müqəddəs bir daş kimi ziyarət olunan “ayət”-“yada” daşı insanın təbiətə pozitiv münasibətinin göstəricisi kimi çıxış edir. Burada əski Türklərin etiqad elədiyi *Yada daşı - Ayət daşı*dır. Yağışkəsmə məqsədilə oxunan “Qodu daşı/ Odu daşı/ Qodu kəssin yağışı” şəklindəki əfsun duasının minilliklərə söykənən tarixi vardır. Adı çəkilən daş (Odu, Kudu) *yada-sata* daşıdır. Əsatirlərdə və mifologiyada yada daşından quraqlıq vaxtı yağış yağdırma, leysanlı-ziyanlı yağışlarda isə yağışkəsmə kimi istifadə olunurdu. Müşahidlərimiz göstərir ki, güclü-selləmə yaz yağışlarında, şaqqıltılı göy gurultularında təhlükələrdən sovuşmaq üçün yerli əhali Qurbanlı pirindəki (Dirili Qurbaninin qəbri olan ziayarətgah) daşlardan birini gətirib evdə saxlayır və inanardılar ki, dolu ilə müşayiət edilən bərk yağışların dayanmasına o kömək edir (Dirili, 2011: 184-185).

İnama görə Sofu ocağına məxsus “ayət daşı” bəzi xəstəliklərdə şəfaverici gücə malikdir, eyni zamanda insana çətin durumdan çıxmaqda kömək edir. Diri dağlarının qoynunda və yaşlı çinar ağaclarının altındakı *Mazan Nənə* pirində ilan ocaqlığı verilmiş Sofu Fərəc (sonralar oğlu Sofu Usub) əhalinin təhlükəli hesab etdikləri ilanlarla asanlıqla münasibət qurmağı bacarır, onları ovsunlayıb tutur və yaşayış məskənlərindən kənar yerlərə aparıb buraxırdı. Bununla, əhalini zəhərli ilanların sancma, ilanları isə əsassız yerə insanların onları məhvetmə təhlükəsindən xilas edirdi. Əhali inanırdı ki, ilanlar sofuya toxunmur, onu eşidir, qeyd-şərtsiz çağırışına gəlir, göstərişlərini icra edir. Dastan qəhrəmanları və şamanlar kimi sofu-ilan ocaqlığı da sahibinə dağda, ağacın altında, bulağın (suyun) yaxınlığında verilir. Sofunun şəfaverici-xilasedici rəmz kimi qəbul olunması da bununla bağlıdır.

Tibb elminin mövcud olmadığı orta əsrlərdə şərq təbabətindən bəhrəlnməklə əhali özünü bir çox xəstəliklərdən qoruya bilirdi. Bu zaman təbiətdəki şəfaverici bitkilərdən istifadə edən insanlar onların biofarmokoloji xüsusiyyətlərini bilmiş, bitkliəri morfolji cəhətdən yaxşı tanımışdır. Bunu “Böyük İlahi” şeirindən oxuyuruq: “Ayı ehtirası ilə zəhərlənərək/ Pozulub yox olmaqda ikən/ Amvardışın otu ilə/ Onlara əlac etdiniz” (Cəfərov, 2004: 146).

Qeyri-ənənəvi üsullarla müalicə indi də vardır. Ötən əsrin ikinci yarısında Sofu Usub’un bəzi xəstəlikləri dəf etməsi, şəfavericilik kimi keyfiyyətləri, onun yeddi rəng sapı birləşdirib ovsun oxuya oxuya yeddi düyün vurması və xəstənin ağrıyan nahiyələrinə, o cümlədən alnına, ağzına, burun-boğaz və qulağına üfləməklə onları ovsunlaması indi də yaddaşlarda yaşayır. Dualayıb ovsunladığı duzu xəstəyə, qorxusu olana verərdi. Belə xəstələrdə qorxu-hürkü itər, xəstəlik aradan qalxar, azar-bezardan arxayınçılıq yaranardı (Dirili, 2011).

Qeyd etmək lazımdır ki, bu cür üsullarla müalicə qədim Türklərdə şaman duaları fonunda mövcud olmuş, onun izləri folklorumuzda mühafizə edilərək qalmışdır; *it qapma, qorxu götürmə, dəmir ovqaytarma, boğaz qaytarma, nəzər götürmə, baş, diş və göz ağrısı, il yarası* kimi xəstəliklər, bundan əlavə *qurd ağzı bağlama, çillə kəsmə, dil-ağız bağlama, yağış yağdırma və yağış kəsmə* əfsunları indi də vardır. Nəzər qaytarma ilə bağlı hələ də icra olunan şu ayin hamıya məlumdur**: "**Üzərriksən, havasan/ Həzər dərdə davasan/ Hər yerdə sən olasan/ Qada-bala savasan" (Nəğmələr, 1989). Ayin zamanı üzərliklə bərabər, duz, un, soğan qabığı, atıl-batıl, yovşan vs.'dən də istifadə edilir. Adı çəkilən bitkilərin müalicə əhəmiyyəti, duz və unun bərəkət rəmzi olması daha çox onlara inamla bağlıdır.

Sofu Usub'un qarşılaşdığı çətinliklər zamanı keçirdiyi rituallar, onun davranışındakı xüsusiyyətlər əski şaman mərasimlərinə çox yaxındır. Əfsanəyə görə, şamanlar ən ağır xəstəni sağaldır, hətta bəzi ölüləri dirildə bilirdilər. Müasir yoqa sistemi bunun mümkünlüyünü təsdiq edir. Deməli, şamanlar bədxah və xeyirxah ruhlara malik olublar. Atəşpərəstlik dininin yaradıcıs Zend-Avesta da dualizm prinsiplərindən istifadə edir. Xeyir və Şər Tanrısı: Hörmüz və Əhrimən. Maqlar bu prinsipə əsaslanaraq, tarixən insanların həyat və fəaliyyətində mühüm rol oynamışlar. Şamanların əski tarixdəki rolu bununla bilavasitə ilişiklidir. İstər Altay və Yakut, istərsə də Türküstan şamanları ötən əsrin əvvəllərinə qədər geniş fəaliyyət göstərmiş, mövcud dövrün inam mənbəyinə çevrilmişlər.

Elmi araşdırmalarda şamanizm öz yerini çoxdan tapıb. Doğrudur, şaman möcüzələri hələlik birmənalı qəbul olunmur, lakin tam inkar da edilmir. Bir inanc kimi Sofu Usub'un sayagəlməyən möcüzələri sırasında ilan zəhərinin ona təsir etməməsi ilə bağlı söyləmələr bizə şaman möcüzələrini xatırladır: "Suda batmayan", "odda yanmayan", "ölüb-dirilən", "göydən ulduz qoparan" vs. şamanlar haqqındakı hekayələr bu gün də əhali arasında dolaşmaqdadır. "Yeməyə heç nəyi olmayan kasıb bir qarının süfrəsinə Kaçitkalı şamanın muşqurması ilə yemək gəlməsi, şamanın ayağına söyüd çubuğu bağlayıb Lena çayının üstünə yeriyib öte sahilə keçməsi" (Şaman əfsanələri, 1993: 39-40); İsa peyğəmbərin batmadan dəryanın üzəri ilə hərəkətini, az miqdarda balıqla təkcə özünü və şagirdlərini deyil, minlərlə insanları doyurması (İncil, 1996) kimi qəribə hadisələr maraq doğurur.

İslam Peyğəmbərində göy cisimlərinə, cansız maddələrə və bitkilərə, heyvanlara münasibət, ölüləri diriltmək və xəstələri sağaltmaq, şeytanlara və cinlərə qalib gəlmək, qeybdən xəbər vermək, düşmənlərinin vurmaq istədikləri şəri qabaqcadan zərərsizləşdirmək kimi möcüzələrin olduğu məlumdur.

Qurani-Kərimdə Musa peyğəmbərin möcüzələrindən bəhs edən ayələr vardır. Onlardan birində (Bəqərə surəsi, ayə 60) deyilir: "Və (yadımıza salın) o zaman(ı) ki, Musa öz qövmü üçün su istəyəndə (Ona) "əsanı o daşa vur" dedik. Beləliklə, ondan (Yəqubun nəslindən olan 12 qəbilə üçün) 12 çeşmə qaynadı. Hər bir dəstə özünün su içmək yerini tanıdı (və dedik): "Allahın ruzilərindən yeyin, için və bu yer üzündə fəsad törədən olaraq hərəkət etməyin". Daha bir misal: "Və biz Musaya vəhy etdik ki, əsanı yerə at. Elə ki, əsanı yerə atdı (əjdaha oldu) və onların düzəltdiklərini uddu. Haqq öz yerinə düşdü və onların əməlləri batil oldu, məğlub olub kiçildilər. Sehrkarlar səcdəyə düşdülər**.**" (Qurani-Kərim).

"Şaman Kyustex" hekayəsində də ağac köməyə gəlir, yol göstərir. Qış vaxtı hava qaralır, yolu azırlar. Şamana deyirlər ki, donub burda qalacağıq, ruhlarını çağır bizə kömək eləsin. Şaman söyüd ağacından bir budaq kəsib gətməyi tapşırır:

> Şaman söyüd də əlində öz-özünə nəsə dedi. Bir yerdə durduğu halda cəld üç dəfə geri dönüb çubuqla qara vurdu. Elə o saatda saxsı kuzə boyda yaşıl bir alov peyda oldu. Alov yolçuların qabağında durdu. Şaman yolçulara belə dedi:
> -İndi gəlin alovun arxasınca gedək. Bu alov heç yerə getməyəcək və sönməyəcək. alov onların önündə getməyə başladı. Tezliklə Atısıtın çəpəri və evi göründü. (Şaman əfsanələri..., 1993: 38).

Ağaca-bitkiyə-canlıya, o cümlədən heyvanlara müqəddəslik rəmzi kimi baxmaq, onları külte çevirmək tarixin əski qatlarından bəri özünü göstərmiş, nəticədə bundan təbiət qazanmışdır. Canlı təbiətə inam şamançılıqda xüsusi yer tutur. İnama görə, şamanın ruhunu heç harada qəbul eləmirlər; nə Erliyin səltənətində, nə də tanrıların göylərində.

Şamanın ruhu tək bircə daşlarda və ağaclarada yerləşir (Şaman əfsanələri..., 1993: 116). Ağac kültü şaman əfsanələrində geniş yayılıb: Bir şaman ömrü boyu bir dəfə də olsun qamlıq etmədi. Onu xəstənin yanına çağıranda getməzdi. Ucuna at tükü bağlanmış bir söyüd çubuğunu xəstənin adamlarına verib tapşırardı ki, onu gecə xəstənin yorğanının altına qoysunlar. Başqa bir misal: Şaman öləndə tapşırardı ki, onu ağacdan düzəldilmiş tabuta qoyub bir qara şam ağacından assınlar... (Şaman əfsanələri..., 1993: 117).

Şamanların ağacları möcüzə saymaları, sehirli-güclü hesab etmələri, bitkilərin canlı orqanizmlərin həyatındakı müstəsna fəaliyyətilə yani fotosintez prosesi ilə bağlıdır. Bitkilərin əhəmiyyətini öz gündəlik həyatlarında hiss edən, qida, geyim, dərman, təmiz hava vs.den faydalanan insanlar onun qorunması qayğısına qalır, bu məqsədlə müqədəsləşdirmə variantından istifadə edirdilər. Fikrimizcə, bu ən qədim dövrlərdən, şamanizmə qədərki tarixdən gələn inamdır. Biz buna Zərdüştçülükdə də, İslamda da, digər dinlərdə də rast gəlirik. Onun izlərini xalqımızın adət-ənənlərində, mərasim ayinlərində də görürük. Bu inam şifahi xalq yaradıcılığnda və klassiklərimizin əsərlərində də özünü göstərir. Bu cəhətdən Dədə Qorqudun və Dirili Qurbaninin ağaca münasibətləri səciyyəvidir (Kitabi-Dədə Qorqud, 2004; Qurbani, 2005).

Heyvanlara münasibət şamançılıqda daha çox, müqəddəs ruhların heyvan cildində təsviri ilə özünü göstərir: "Baş hami ruh İnə kıl, hər cür heyvan donunda görünə bilər; sığın cildinə də düşə bilər, ayı cildinə də. Bu da onun yiyəsi şamandan asılıdır, o hansı heyvanı istəsə, həmin donda da gözünə görünəcək" (Şaman əfsanələri..., 1993: 35). Başqa bir misalda kamilləşmiş Şaman müqəddəs bir varlıq kimi xəstəliklərin aradan qalxmasında, vaxtsız ölümün qarşısının alınmasında fövqəlqüvvə kimi çıxış edir. Bu məqsədlə onun bədəni hissələrə parçalanaraq lazım olan yerlərə atılır: "Şamanın canı yetişib kamilləşəndə və özü-özünü saxlaya biləndə ana heyvan yer üzünə qalxır. Burada o, şamanın bədənini tikə-tikə doğrayır, onları bütün azar-bezar, ölüm gələn yollara tullayır, ruhların arasında bölür" (Şaman əfsanələri..., 1993: 34).

Şamanizmdə kosmos sərvətlərinə, suya və torpağa da müqəddəslik rəmzi kimi baxılıb. Onları müqəddəs hesab etmək, həmin sərvətlərin insan həyatındakı əhəmiyyətini düzgün qiymətləndirməkdən irəli gəlirdi. "Deyirlər ki, ruhlar şamanların bədənlərini tikə-tikə doğrayanda onlar Günəş Dağa, Ay Dağa gedib orada doğurlar (Şaman əfsanələri..., 1993: 43). "Doyompo şaman təpəliyə gedib orada doğardı. Həmin təpəliyin lap uca bir yerində balaca bir göl vardı. Şaman doğum vaxtı ora qalxardı(Ş aman əfsanələri..., 1993: 70). Nəsl artımına yüksək dəyər verən şamanlar dünyaya övlad gətirəcəyi anlarda gölün, ayın, günəşin, dağın yanına getməsi də bununla bağlıdır. Nəsl artırması qayğısına qalmaq şamanizmdə bu məqsədlə həyata keçirilən xüsusu mərasimlərdə təsdiqini tapır. Şaman Yer anadan aldığı cinsi ehtirası adamlara və mal-qaraya verirdi ki, nəsil artımı dayanmasın (Şaman əfsanələri..., 1993: 70). Uşağı olmayanlar şamanlardan xahiş edirdilər ki, Tanrıya yalvarıb ondan övlad istəsinlər. Belə hallarda adətən şamaların diləyini Bulud yaradan Ruh yerinə yetirirdi (Şaman əfsanələri..., 1993: 128).

Göründüyü kimi, nəsl artımı mifoloji inama görə yağışla bağlıdır. Zənnimizcə yağış; var, bərəkət, bitirmək, böyütmək mənasındadır. "Şamanın uşaq istəməsi" adlı digər bir söyləmədə maraqlı fikir ondan ibarətdir ki, Tanrı şamanın istəyini asanlıqla qəbul etmir. Bu, övladı olmayan şəxsin vaxtı ilə təbiətə neqativ münasibəti ilə əlaqədardır:

> Kyünnet knyazın iki arvadı olsa da, övladı yox idi. Buna görə də o, yaman və qara ruhlarla bağlı olmayan ağ şaman dəvət etdi ki, uşaq istəmək üçün mərasim

> keçirsin… Şamanlar dua mərasimini qurtarıb, Yüryünq Ayıının yanına qalxdılar… Ona belə dedilər:
> - Sənin əmrinlə orta dünyada yaşayan Kyünnet knyazın övladı olmur. Onun iki arvadından heç bir doğmur. O səndən övlad istəyir, bizi də sənin yanına göndərdi. Yüryünq Ayıı şamanların bu sözünə belə cavab verdi:
> - Onun məhşur olan babası yaxşı heyvanların artmasına mane olurdu. Onların axırına çıxırdı. Yaxşı nəsildən olanları qırıb çatdı. Buna görə də onun nəslindən üz döndərmişəm. Şaman təkidlə yalvarmağa başladı. Axırda Tanrı dedi:
> - Yaxşı, qoy sən deyən olsun. Mən ona Ayannıt Istırın adlı bir oğul verirəm. Knyazın ikinci oğlu yerdə nizam-intizam yaratmaq üçün doğulacaq. Adı Ayqaan Kyüryükyü olacaq (Şaman əfsanələri..., 1993: 129-130).

Yada daşını barədə danışmışdıq. O bərəkət-ruzi timsalı kimi qəbul edilirdi; yağış yağdırırdı. Övladın olması, yağışın yağması nəslin davam etdirilməsi baxımından əski Türklərdə xüsusi məzmun kəsb edirdi. Bizə görə, daş kültünün yaranmasına səbəb olan amillərdən biri də budur. Şamanlar daşa xüsusi bir hal kimi yanaşırdılar. "Şaman Tostoqoş daşa dönür. Hər kəsə bir cür görünən bu daşın hələ də qaldığı deyilir. "indi o daşın yaxınlığında bir ulu şaman yaşayır. Deyilənə görə, güclü şaman bu daşın qabağında heç bir zərər çəkmədən qamlıq edə bilir. Zəif şaman isə ölür. Camaat indi bu daşa qurban verir." (Şaman əfsanələri..., 1993: 63). Qeyd etmək lazımdır ki, Azərbaycan nağıllarında və əfsanələrində şamançılıqla səsləşən "daşadönmə", "daşadöndərmə" hadisələrinə tez-tez rast gəlirik. Ancaq hazırda onun bu səviyyədə müqəddəsləşdirilməsinin izləri, yalnız pirlərdə qalıb.

Şaman söyləmələrində *Dağ Tanrısı-Dağ yiyəsi, Su Tanrısı-Su yiyəsi, Ağac Tanrısı-Ağac yiyəsi* kimi anlayışlar qədim Türklərin təbiətə etiqadının, ehtiramının göstəricisi idi. Biz həmin inancların qalığına məişətimizdə rast gəlirik. Şaman əfsanələrində təbiətin canlı və cansız komponentlərinə münasibət yalnız mifoloqlar, folklorşünaslar, etnoqraflar üçün deyil, təbiətşünaslar, ekoloqlar üçün də maraqlı ola bilər.

Maraqlıdır ki, şaman yalnız xeyirli məqsədlər üçün yox, həmçinin şər qüvvə kimi də heyvanlardan istifadə edirdi. Çox vaxt o, buna məcbur olurdu. Şaman aşağı təbəqəyə pislik etməkdən həzz alan, insanların yaşayış şəraitinə maneçilik törədən məmurları, naqis adamları heyvan cildinə girmiş bəd ruhların köməyi ilə öldürürdü. "Noyonun yeddi dövlətli məmurunun qapısı ağzında hər gün qara qarğa görünməyə başladı. Aradan çox keçməmişdi ki, noyon və yeddi məmur azarladılar. Tezliklə onlar öldülər. Onların uşaqları da öldü. Bütün mal-davarları da qara qarğanın gətirdiyi azara tutulub tələf oldu. Beləcə, şaman Tokpan qarğa cildinə girib, təhqir olunmuş ərinin dövlətli düşmənlərini əzib axırlarına çıxdı." (Şaman əfsanələri..., 1993: 61-62). Burada bəd ruh qara qarğa donunda çıxış edir. Azərbaycan xalqının, ümumən Türk xalqlarının inanclarında qara qarğa bəd uğur kimi lənətlənir. Qara qarğanın qarıldaması şərə yozulur. Daş və ağac tullamaqla onu ərazidən qovub çıxarırlar ki, ziyanlıq baş verməsin. Ancaq bunun heç bir elmi əsası yoxdur və qarğaya qarşı bu cür münasibət bilgiksizlikdən irəli gəlir.

Şamançılıqda ətraf mühitə münasibət onların inanclarında aydın görünür. Şaman inamına görə, "Dünyanın tən ortasında əzəldən yaranmış Göy Təpə ucalır. Təpənin zirvəsində isə Bay Dirək boy atır. Bu Bay Dirəyin dörd budağı göy qübbəsinin bütün qatlarını yarıb keçir. Göy qatlarını Bay Dirəyin budaqları saxlayır. Bay Dirəyin kökü Yerin bütün qatlarından keçib dərin sulara qədər işləyir…" (Şaman əfsanələri..., 1993: 132-134). Bay Dirək həyat ağcıdır. Biosferin tamlığını təşkil edir. Canlıların yaşaya biləcəyi atmosferi – göy qatlarından (troposfer, strosfer, mezosfer də daxil olmaqla) birini, litosferi (torpaq örtüyü) və hidrosferi (su təbəqəsi) özündə birləşdirir. Yunan mifologiyasında Göylə Yeri birləşməyə qoymayan Atlant adlı bir pəhləvandır. Burada isə Bay Dirək. Bay Dirək Atlant'dan fərqli olaraq, həyat rəmzidir, həyatın özüdür. Yaşıl kütləsi ilə ətraf mühiti oksigenlə zənginləşdirir. Kökü torpağın dərin qatlarından su içir. Təkcə özünü deyil, digər canlı orqanizmləri də qida maddələri ilə təmin edir. Başqa sözlə, Bay Dirəyə bütövlükdə təbiətin modeli kimi baxmaq olar. Onun həyat rəmzi olması bir inancda da əksini tapıb. Şamanlar inanırdılar ki, onun gövdəsi boyunca canlar (cinlər) yerə enib

qadınların bətninə girir, yeni həyat doğururlar. Şamanlar həmçinin "bütün Yerin ulu Göy Öküzün buynuzları üstündə dayandığına, Göy Öküzün də Cada daşının üstündə durduğuna inanırdılar (Şaman əfsanələri..., 1993: 132-134). Məlumdur ki, öküz əkinçinin əsas aləti idi; əkən, şumlayan, taxıl daşıyan, buğda döyən vs. "Cada daşı"/"yada daşı" Türklərdə inama görə yağış gətirən daşdır. Quraqlıqdan əziyyət çəkən əkin sahələrinə yağış yağdıran bərəkət-ruzi simvoludur. Xalq bununla bağlı mövsüm mərasimləri keçirib, nəğmələr yaradırb.

Qədim Türk ədəbi nümunələrindən olan "Türk buddist şeiri"ndə təbiətin gözəllikləri - hündür və tökmə qayaları, sıra dağları, inci kimi saf və şəfalı axar suları, ardıc və söyüd kimi can dincəldən ağacların altında, sakit bir guşədə dincəlmək, istirahət etmək, əsəblərini cilovlamaq tövsiyyə edilir (Cəfərov, 2004: 164).

İç-içə, dərin (dərəli), qat-qat,
Büküm-büküm dağlarda,
Köhnə, qədim aranyadanda,
Yüksək, tökmə qayalıqların basqısı altında,
Tam sakitlikdə,
Bəstəboy, çoxlu söyüdlər arasında,
İnci sular qırağında
Hər bir şeydən vaz keçib dhyanaya dal
Məhz belə yerlərdə!..

Burada "İnci sular" bizə görə, şəfalı, bəzi xəstəliklərdə dərman kimi istifadə olunan, tərkibi faydalı mineral maddələrlə zəngin bulaqlardır. Koroğlunun içdiyi "Qoşabulaq" kimi, Qurbaninin "İçən ölməz dərdə dərman suyundan" dediyi "tər bulaqlar"dır.

Təbiətin etibarlı mühafizəsi və uzunömürlüyü ona göstərilən qayğıkeş və humanist münasibətdən asılıdır. Qədim Türklərin yazılı ədəbiyyatında buna aid çoxlu nümunələr vardır. "Kiki (İlahi)" şeirində olduğu kimi (Cəfərov, 2004: 233).

Mahiyyət ağacının çiçəklərini,
Cürbəcür yarpaqlarını, meyvələrini
Təkrar-təkrar o üz-bu üzə çevirərək
Yaxşıca sığallayıb gözdən keçirməli**.**

Şaman inancalarında da təbiət ülvi, müqəddəs və pakdır. Onu günaha batıra bilməzsən. "Nahaqdan günaha batanlar göy göyərçinə dönüb Dəryanın ortasındakı adaya uçurlar. Orada qüllənin başında otuz il qadın cildində yaşayıb övladı olmayan sonsuz qadınlara övlad bəxş edirlər…" (Şaman əfsanələri..., 1993: 132-134). Bundan sonra, o haqsız günahdan azad olur. Xeyirxah əməli, bir nəslin davamlılığında yardımçı fəaliyyəti göyərçini saflaşdırır, təmizlənir. Xalq inamına görə, göyərçin müqəddəs quşdur, onu incitmək, ovlamaq, öldürmək yasaqdır. Çağdaş inanc görə o həm də, sülh quşudur. Təsadüfi deyildir ki, insanlar arasında vasitəçilik edir, körpü rolunu oynayır, məktub-məlumat daşıyır.

Qədim Türk inanclarında *qoç; igid, mərd, yardımçı, yenilməz, uğur, güc əlaməti* kimi təsvir edilir. "Qoç Koroğlu" ifadəsi buradan yaranmışdır. Yuxuda qoç görmək xeyirə yozulur. Şamanlar inanırdılar ki, qoç sümüyü, ya da qoç buynuzu olan yerdə yaman ruhlar dolaşmaz; "Qoç yer üzündə insandan əvvəl yaranan ən təmiz heyvandır. O, həyat gücünün, uğurun, xoşbəxtliyin daşıyıcısıdır…"

Ətraf mühitin biotik faktorlarından olan bitkiyə-ağaca şamanlar həyatın simvolu kimi baxmış, Tanrı bilib ona səcdə etmişlər. Araşdırmalarımızda Ağaca sitayişlə bağlı çoxlu məlumatlarla qarşılaşmışıq. Bir şaman söyləməsində oxuyuruq: "Danışardılar ki, babam ha yanda isə Sarı Arx deylən bir yer var ki, həmişə ora gedər, o yerdə Ata Övliya Ağaca dua eləyər, səcdə qilarmış…" (Şaman əfsanələri..., 1993: 132-134). İndi də bir çox bölgələrimizdə *dağdağan, çinar, azat, narbənd* vb. ağaclar müqəddəsləşdirilərək pirə çevrilmişdir. Belə ağacları qırmaq, gövdəsini yazmaq və ora mıx çalmaq günah hesab edilib. Onların yüz illərcə qorunub salamat qalmalarında, bu cür münasibət faydalı olmuşdur. Bioloji müxtəlifliyə tipik

nümunə kimi göyərçin, ardıc, söyüd, qara şam, siçovul, böcək, kəpənək, kərtənkəə, canavar, sığın, ayı, at, inək, maral, qırğı, eşşək arısı, ev maralı, vəhşi maral, qayınağacı, tozağacı vs. kimi bitki və heyvan növlərinə şaman əfsanələri və dualarında tez-tez rast gəlirik.

Qədim Türk ədəbi nümunələrindən olan "Müdriklik Türküsü"sü, "Türk buddist şeiri", "Tövbə duası", "İlahi deyimlər", "Qızıl qişlaq" vb. metinlerde insan ekologiyası ilə bağlı fikirlər diqqəti cəlb edir. "Müdriklik Türküsü"ndə biliyə, müdrik olmağa yüksək qiymət verilir. Bilikli, savadlı insanın var-dövlətə tuş olacağı qeyd edilir (Cəfərov, 2004: 116).

Bilik bilin, ay bəyim,
Bilik sənə eş olur.
Bilik bilən hər kəsə
Bir gün dövlət tuş olur.
Biliklinin belinə
Daş qurşansa qaş olur.
Biliksizin yanına
Qızıl qoysan daş olur.

Qədim Türk düşüncəsində bilikli olmaq, dövlətli olmaq deməkdir. Oxumaq, öyrənmək, bilmək hər zaman vacib və savab sayılıb. İslam Peyğəmbəri elmi yüksək dəyərləndirir, "beşikdən qəbr evinəcən öyrənin", deyirdi.

Şaman hekayələrində olduğu kimi, Türk xalqlarının digər ədəbi yardıcılıq nümunələrində ətraf mühitə sayğı ilə yanaşmaq, ehtiram bəsləmək, diqqət və qayğı göstərmək ciddi bir məsələ kimi qarşıya qoyulurdu. Məlumdur ki, əhli heyvanlardan fərqli olaraq, vəhşi təbiətdə çöl heyvanlarının yaşamaq qayğısı daha çoxdur. Gücü tükənmiş yaşlı və qoca, ac-susuz heyvanlara qayğı göstərmək, onları yemləmək savabdır. Müasir qoruq ərazilərində görülən tədbirlər belə problemlərin həllinə kömək edir. Ancaq qədim dövrlərdə bu mümkün deyildi. "Qızıl qışlaq" hekayəsində həmin məsələyə əhalinin münasibəti əksini tapıb: Bu qədər güclü yaradılmış, ancaq əldən düşüb zəifləmiş pələng aclıq, susuzluq əzabından üzülüb ölməkdədir. Bizdən başqa kim olacaq buna yarayan yem, su versin, bu yazıq məxluq üçün özünü unudub onun ömrünü uzatsın - deyə söylədi (Cəfərov, 2004: 303). Qədim Türk inamına görə, heyvanları incitmək, onlara əzab vermək, öldürmək Tanrı dərgahında günaha batmaqdır. Təbiətə ziyan vurmaq, canlıları məhv eləmək yaxşı əlamət sayılmır. "Tövbə duası"nda Hörmüz Tanrının beş tanrı - Meh Tanrısı, Yel Tanrısı, İşıq Tanrısı, Su Tanrısı, Od Tanrısının birgə gücü ilə təbiətə əl qaldıran insanın içindəki şeytanlara qarşı mübarizə aparmaq, vuruşmaq üçün enib gəldiyi söylənilir. Səhvini anlayan insanlar Tanrıdan günahlarının bağışlanmasını istəyirlər: "Beş növ məxluqa-iki ayaqlı adamlara, dörd ayaqlı canlılara, uçan canlılara, sudakı canlılara, yerdəki qarnı üstə sürünən canlılara, günah içərisində dolanaraq, ey tanrım, bu beş cür məxluqları böyükdən kiçiyə nə qədər qorxutduq, ürkütdüksə, nə qədər vurduq, yolduqsa, nə qədər acıtdıq, ağrıtdıqsa, nə qədər öldürdüksə (o qədər də), bunca məxluqlara borclu qaldıq. Tanrım, indi günahlarımızdan azad olaraq yalvarırıq: günahlarımızı bağışla!" (Cəfərov, 2004: 290-292).

Orqanizmin inkişafında xüsusi əhəmiyyət daşıyan işıq, istilik, su, hava kimi abiotik amillərin tanrılar şəklində verilməsi təsadüfi deyildir. Bunlar həm də, simvolik xarakter daşıyıb, gücü ifadə edirdilər. Qədim Türk ədəbiyyatında, o cümlədən şamançılıqda hər bir ruh təbiətin bu və ya başqa şəkildə özü demək idi. Ona görə də onlar təbiəti müqəddəs hesab edir, ətraf mühit amillərinə sayğı ilə yanaşırdılar.

**3. Nəticə**

Şamançılıq bir sistem kimi əski Türklərdə Göy Türk kağanlığı dövründən başlayaraq mövcud olmuş və qədim Türk mədəniyyətinin bütün qatlarında dərin iz buraxmışdır. Bu səbəbdən şamanizm Türklərin inanc tarixində mühüm yer tutmuşdur. Apardığımız araşdırmalar göstərir ki, şamanlar əhalinin məişət və təsərrüfatına, ətraf mühitə təsir etmək gücünə malik idilər. Onların həyat tərzi, məqsədlərinə çatmaqdan ötrü qamlıq etmələri təbiət və onun komponentləri ilə bağlı olmuşdur. Şamanizmdə müqəddəs bir iş sayılan şamandoğulmanın ilk

və əsas tələblərindən biri həmin anlarda təbiətlə sıx təmasda olmaqdır. Bu onu göstərir ki, şamanlarda təbiətə inam çox güclü olub. Ağac və daş kültü, heyvanlara münasibət şaman möcüzələrində və etiqadlarında xüsusi əhəmiyyət kəsb edirdi. Şamanizmdə kosmos sərvətlərinə, suya və torpağa da müqəddəslik rəmzi kimi baxılıb. Onları müqəddəs hesab etmək, həmin sərvətlərin insan həyatındakı əhəmiyyətini düzgün qiymətləndirməkdən irəli gəlirdi.

Şaman söyləmələrində insan ekologiası ilə bağlı fikirlər göstərir ki, şamanlar insanı təbiətin bir hissəsi kimi mənəvi və fiziki cəhətdən sağlam və kamil görmək istəyiblər. Ona görə də aşağı təbəqəyə pislik etməkdən həzz alan, insanların yaşayış şəraitinə maneçilik törədən məmurları, naqis adamları heyvan cildinə girmiş bəd ruhların köməyi ilə öldürürürdülər. Şaman yalnız xeyirli məqsədlər üçün yox, həm də şər qüvvə kimi heyvanlardan istifadə edirdi. Qara qarğa bəduğur heyvan sayılır və naqis adamlara qarşı ondan istifadə olunurdu. Çünki qara qarğanın qarıldaması şərə yozulur. Təssüf ki, həmin heyvana qarşı el arasında münasibət indi də qalır. Daş və ağac tullamaqla onu ərazidən qovub çıxarırlar ki, ziyanlıq baş verməsin. Ancaq bunun heç bir elmi əsası yoxdur və qarğaya qarşı bu cür münasibət biliksizlikdən irəli gəlir. Bununla belə həm şamanizmdə, həm də qədim Türk ədəbi nümunələrində insan-təbiət qarşılaşması ekoloji fikir tariximiz üçün tutarlı və gərəkli mənbədir.

**Qaynaqlar**

*Azerbaycan dastanları III-c.* (2005). Bakı: Şerk-Kerb.

Ceferov, N. (2004). *Kedim Türk edebiyyatı*. Bakı: AzAtaM.

Dirili, Y. (2011). *Nuh Peyğember, Mazan Nene ve Sofu Ocağı.* Bakı: Nergiz.

İncil (Ehdi-Cedid). (1996). *Rebb İsa Mesihin hoş heberi.*Stokholm: Bibliya Tercüme İnstitutu.

Kitabi-Dede Korkud (2004). *Esil ve sadeleşdirilmiş metnler*. (T. Hacıyevin redaktesile). Bakı: Önder.

Kazımov, K. (2005). *Kurbani Eserleri.* Bakı: Şerk-Kerb.

*Kurani-Kerim.* (2004). (Tertib eden Bünyadov, Z., Memmedeliyev, V.). Bakı: Çırak.

*Neğmeler, inanclar, alkışlar.*(1989). (Tertib eden Nebiyev, A.). Bakı: Yazıçı.

Seyidov, M. (1994). *Kam-Şaman ve onun kaynaklarına ümumi bahış*. Bakı: Genclik.

*Şaman efsaneleri ve söylemeleri.*(1993). (Tertib eden Gözelov, F., Memmedov, C). Bakı: Yazıçı.

**Etik, Beyan ve Açıklamalar**

**1.** Etik Kurul izni ile ilgili;

☑ Bu çalışmanın yazar/yazarları, Etik Kurul İznine gerek olmadığını beyan etmektedir.

**2.** Bu çalışmanın yazar/yazarları, araştırma ve yayın etiği ilkelerine uyduklarını kabul etmektedir.

**3.** Bu çalışmanın yazar/yazarları kullanmış oldukları resim, şekil, fotoğraf ve benzeri belgelerin kullanımında tüm sorumlulukları kabul etmektedir.

**4.** Bu çalışmanın benzerlik raporu bulunmaktadır.